# Humanitar atəşkəsin antihumanist qatilləri

## Atılan hər bir düşünülmüş və dəqiq addım bizi əsas hədəfə daha da yaxınlaşdırır

Azərbaycan və Ermənistan Xarici İşlər nazirləri arasında Sergey Lavrovun iştirakı ilə Moskvada keçirilən görüşü bəlkə son 30 ilin ən gərgin, ən mürəkkəb görüşü hesab etmək olar. Danışıqların 11 saat davam etməsi də bunu sübuta yetirir. Bu, həm də o deməkdir ki, Azərbaycan masa arxasında da savaşıb, döyüş meydanındakı əzmini danışıqlarda da nümayiş etdirib. Azərbaycan Ermənistanın hərbi təxribatları qarşılığında əks-hücuma başlayanda da, işğalçı ordunu darmadağın edəndə də danışıqları istisna etməmişdi və bunun üçün öz şərtlərini irəli sürmüşdü. Bu şərtlər isə beynəlxalq hüquqa, Azərbaycanın işğal altında olan ərazilərinin tamamilə və qeyd-şərtsiz azad edilməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinə söykəndiyi halda yenə ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən hansısa reaksiya ilə qarşılaşmadı. Qardaş Türkiyə rəsmiləri isə prosesin inkişaf perspektivini nəzərə alaraq, "Masada da, meydanda da Azərbaycanın yanındayıq" bəyanatını verdilər. Azərbaycan indi bu prosesi paralel şəkildə aparır. Döyüş meydanında qazandığı üstünlüyü masaya daşıyır və masada əldə edəcəklərini, yaxud işğalçıya real təzyiq göstərilməyəcəyi təqdirdə, üstünlüyünü yenidən döyüş meydanına daşıyacaq. Yəni, humanitar atəşkəs, sadəcə, birinci mərhələdir. Hərbi əməliyyatların gedişində dəyişilmiş status-kvonun siyasi və diplomatik müstəviyə daşınmasıdır. Bu proseslərin paralel şəkildə aparılması ona görə vacibdir ki, əldə edilmiş nailiyyətlərin daha da gücləndirilməsinə zəmin yaransın. Ermənistan tərəfinin daxili ictimai rəyə hesablanmış fantastik təbliğat və təşviqat metodlarının, üfürülən yalanların miqyasının nəhayətsizliyinə rəğmən, artıq danışıqların gedişində də şərtləri Azərbaycan müəyyən edir və qarşı tərəfin hər hansı bir iddiasının, şərtinin qəbul edilməyəcəyi ilə bağlı mövqeyini imperativ şəkildə nümayiş etdirir. Nəzərə almaq lazımdır ki, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi məqsədilə atılan bütün addımlar, həyata keçirilən və bundan sonra keçiriləcək bütün əməliyyatlar Azərbaycana qarşı artan siyasi-diplomatik təzyiqlər şəraitində gerçəkləşdirilir. Azərbaycan Prezidenti bu təzyiqlərə mətanətlə sinə gərir, çevik, ardıcıl və zamanında atılan diplomatik addımlarla ölkəmizə olan təzyiqləri neytrallaşdırır, işğalçı Ermənistanın və havadarlarının dövlətimizə qarşı vahid diplomatik cəbhə formalaşdırmaq cəhdlərinin qarşısını alır. Bu, olduqca çətin, mürəkkəb və ziddiyyətli bir prosesdir. Hadisələrin gedişatında hər an yeni reallıqların ortaya çıxması, ilk baxışda həlli asan görünən problemlərin mürəkkəb xarakter alması mümkündür və bu ehtimal heç vaxt istisna olunmayıb. Belə olduğu təqdirdə, diplomatik müstəvidə buraxılan istənilən səhv hərbi üstünlüklərimizin də əldən çıxmasına səbəb ola bilər. Həmçinin humanitar atəşkəsə Azərbaycanın birtərəfli qaydada yox deməsi Ermənistanın mövqelərinin gücləndirilməsinə zəmin yarada və ölkəmiz tərəfindən Beynəlxalq Humanitar Hüququn prinsiplərinin, o cümlədən Haaqa və Cenevrə konvensiyalarının və bu konvensiyalara BMT Baş Assambleyasının Əlavə protokollarının pozulması kimi təqdim edilə bilərdi ki, bu da indiki şəraitdə ölkəmizin maraqlarına qətiyyən uyğun deyil. Humanitar atəşkəs müvəqqəti xarakter daşıyır və hərbi əməliyyatların keçirildiyi ərazilərdə humanitar məqsədlə hərəkətlərin yerinə yetirilməsinə xidmət edir. Danışıqlar mahiyyəti üzrə, heç bir manipulyasiyaya, status-kvonun bərpasına xidmət edən bəhanələrə yol verilmədən aparılmalı, Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən çıxarılmasını nəzərdə tutan plan hazırlanmalı və həyata keçirilməlidir. Əgər bundan sonra Ermənistan yenə də ənənəvi davranışlarını davam etdirəcəksə və işğal etdiyi Azərbaycan ərazilərindən konkret, əvvəlcədən müəyyənləşdirilmiş və qısa zaman çərçivəsində öz qoşunlarını çıxarmayacaqsa, bu halda sülhə məcburetmə əməliyyatlarının yenidən bərpası kimsədə şübhə doğurmamalıdır. Artıq təmas xətti deyilən anlayış yoxdur, status-kvo dəyişib, hərbi və siyasi müstəvidə şərtləri Azərbaycan diktə edir. Vaxtilə Dağlıq Qarabağın inzibati ərazisinə daxil olan Hadrutun və ətraf kəndlərin azad edilməsinin isə çox böyük geosiyasi əhəmiyyəti var. Bu Azərbaycanın öz ərazi bütövlüyünü tam şəkildə bərpa edəcəyinin, tarixi və hüquqi ərazisində suveren hüquqlarından kənar hər hansı bir subyektin formalaşmasına imkan verməyəcəyinin sübutudur. Azərbaycanın döyüş meydanında əldə etdiyi qələbələrlə Ermənistanın danışıqların formatını dəyişdirmək və Dağlıq Qarabağdakı qondarma rejiminin danışıqlar prosesində tərəf kimi çıxış etməsinə nail olmaq, o cümlədən 1994-cü il Bişkek protokolunu əlində bayraq etmək iddiasının üzərindən birdəfəlik xətt çəkildi. Ermənistan etiraf etdi ki, bu münaqişədə tərəf olan Dağlıq Qarabağdakı qondarma rejim deyil, məhz Ermənistan dövlətidir. Ermənistanın baş naziri artıq heç bir şərt irəli sürmür və ona diktə edilən şərtləri qəbul etmək məcburiyyətindədir. Son 30 ildə Azərbaycan Ordusu ilk dəfədir ki, bir həmləyə 15-20 gün bundan əvvəl əksəriyyətimizin təsəvvür edə bilməyəcəyi qədər ərazi azad edib. Nəzarətimizdə olan, düşmənin ayaq basa bilməyəcəyi ərazilərin miqyası isə işğaldan azad etdiklərimizdən dəfələrlə böyükdür. Bütün cəbhəboyu döyüş şəraitinə Azərbaycan Ordusu nəzarət edir. Müharibə ilə diplomatiyanın ritorikası eyni deyil. Diplomatiyanın dili daha lakonikdir və bütün məqamlar elan olunmayan detallarda gizlənir. Məhz bu baxımdan da səbirli olmaq, dövlətimizə, Ordumuza olan sonsuz güvənimizi qoruyub saxlamaq, informasiya savaşından, əsəb müharibəsindən də döyüş meydanında olduğu kimi, qalib çıxmaq üçün maksimum səy göstərmək lazımdır. Ali Baş Komandan Azərbaycan ərazilərinin bir qarışının belə düşmənə güzəştə gedilməsini qəbul etməyəcək qədər qətiyyətli, prinsipial və cəsarətlidir! Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 15 iyul 2020-ci il tarixli iclası zamanı bildirib: "Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik. Yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında. Nəyi ediriksə, dəqiqliklə edirik". Bu günədək aparılan siyasət, atılan addımlar, o cümlədən sentyabrın 27-dən başlayan əks-hücum əməliyyatları dövlət başçısının bu fikirlərinin tam əsaslı olduğunu təsdiq edir. İstər danışıqlar masasında, istərsə də hərb meydanında atılan hər bir düşünülmüş və dəqiq addım bizi əsas hədəfə daha da yaxınlaşdırır.

**"Qəbələ"**

## Doğru yoldayıq-Qarabağa doğru yoldayıq...

Nəhayət o günlər gəlib çatdı. Şanlı Azərbaycan ordusu xalqının 30 illik yurd, vətən həsrətinə son qoymaq üçün misri qılıncını çəkdi. Anbaan, addım-addım doğma torpaqlara yaxınlaşır müzəffər ordumuz. Üçrəngli zəfər bayrağımız bir-birinin ardınca mənfur tapdaqlardan azad olan torpaqlarımızda, yüksəkliklərimizdə dalğalanır. Azərbaycan xalqı, Azərbaycan ordusu öz tarixini yenidən yazır... Əzmlə, qürurla illərdir bağrı qara, yara olan torpaqlarımıza doğru irəliləyirik, öndə qəhrəman əsgərlərimiz, arxada cavanlığı düşmən əsarətində girov olan, yaşlılığı isə burada nigaran olanlarla yanaşı bütün Azərbaycan xalqı...

Məlum olduğu kimi sentyabrın 27-si mənfur erməni xisləti yenə də özünü büruzə vermiş və cəbhənin müxtəlif istiqamətlərində torpaqlarımıza qarşı təxribat törətmişdir. Buna cavab olaraq rəşadətli Azərbaycan ordusu əks-hücum tədbirləri görmüş və düşmənə lazımi qarşılıq vermişdir. Lakin düşmən yenə təxribatlara əl atmış və artıq uzun illərdir vətən həsrətindən cana doymuş xalq və ordumuz işğal olunmuş torpaqlarımızda ədaləti təmin etmək naminə haqq savaşına başlamışdır. Qısa müddət ərzində şanlı, əzmli ordumuz Cəbrayıl şəhərini və kəndlərini, Talış yüksəkliyini, Murovdağ yüksəkliyini nəzarətə götürmüş və uğurla irəliyə doğru addımlamaqda davam edir. Bu, bizim haqq savaşımızdır. İllərdir Beynəlxalq təşkilatların etməli olduğu işi artıq Ali Baş komandanın əmri və xalqımızın dəstəyi ilə müzəffər ordumuz həll edir. Artıq bu yoldan humanistliyimizi qoruyub saxlayırıq. Yenə onlara torpaqlarımızdan öz istəkləri ilə çıxmaq üçün vaxt veririk, şərait yaradırıq. Amma mənfur düşmən öz xoşu ilə çıxmırsa bizim hərbdən başqa yolumuz yoxdur. Qoy onda 30 ildir biz şə-



dönüş yoxdur. Prezidentimizin dediyi kimi, daha 30 il gözləməyə səbrimiz, ya vaxtımız var. Bizim heç bir ölkənin bir qarış torpağında gözümüz yoxdur. Biz bizim olanı istəyirik və alırıq. Faşist erməni də anlamalıdır ki, bizim olanı bizə qaytarmaq vaxtıdır, bizim üçün zəfər, onlar üçün hüsran vaxtıdır. Biz yenə millət olaraq, xalq olaraq öz hidlərimizə necə ağlayırıqsa erməni anaları da ağlasın. Biz şəhidlərimizin ruhu qarşısında söz vermişik, "qanınız yerdə qalmayacaq" demişik. Elə isə sözümüzü tutmaq vaxtıdır. Müqəddəs torpaqlarımızı düşmən əsarətindən qurtarmağın tam vaxtı və zamanıdır. Bütün dünya ölkələri qarşı çıxsa belə bizim əzmimizi qıra bilməz.

Əlbəttə, iradəli siyasətimiz qarşısında düşmən geri çəkilməyə məcbur olur və olacaq. Artıq erməni əsgərləri əsgərin, hərbi hissənin şərəfi sayılan döyüş bayrağını, tankları, hərbi texnikalarını, silahlarını qoyub qaçırlar. Bu o deməkdir ki, ordumuzun gücü qarşısında acizliklərini dərk edirlər.

Yenilməz Azərbaycan ordusu qarşısında heç bir erməni əsgəri tab gətirə bilməz.

Təəssüf ki, biz illərdən bəri hərb və sülh bacarmayan düşmənlə üz-üzəyik. 1980-ci illərin ortalarından bu tərəfə biz kökü olmayan, kimliyini, özünü tanımayan, bəzi ölkələrin oyuncağı olan, nankor, nə uğrunda, hansı torpaq uğrunda mübarizə apardığını dərk etməyən, qəddar, faşist, qaniçən bir millətlə qarşı-qarşıya qaldıq. Heyf onlara sərf etdiyimiz aylarımıza, illərimizə...

Savaş o zaman ədalətli nəticələnər ki, hansısa bir məqsəd üçün mübarizə aparan iki tərəfdən biri qalib, digəri isə məğlub olar. Lakin bizim illərdir davam edən mübarizəmizdə tərəzinin bir daşı hər zaman ağır gəldi...

Amma nədənsə bütün dünya beynəlxalq təşkilatlar, hətta torpaqlarımızın 20 faizinin erməni işğalı altında olduğunu qəbul edən BMT, ATƏT-in MİNSK qrupu belə bu ədalətsizliyə göz yumduğu üçün illərdir torpağımız uğrunda qurban verdiyimiz şəhidlərimizi görmədilər- kor oldular, onlara ağlayan ana-bacılarımızın ədalət hayqırışını duymadılar- kar oldular, körpə, fidan balalarımızın faşist xislətli düşmən gülləsinə tuş gəldiyini görüb susdular, dinmədilər-lal oldular. Görünür, bu dünyanın ədalət tərəzisi çaşıb, səhv göstərir. Elə isə biz nə böyük dövlətlərdən, nə BMT-dən, nə ATƏT-in MİNSK qrupundan ədalət gözləyirik, biz yalnız Allahın ədalətinə güvənir, inanır, ona sığınırıq. Onun ədaləti bu dəfə doğrunu göstərəcək, biz buna əminik. Ona görə də, haqq yolumuzda əmin addımlarla irəliləyirik. Torpaqlarımızda son günlərini yaşayan düşmənə silahlı qüvvələrimiz, müzəffər ordumuz kimliyini tanıdır, xatırladır. Bu yolda, əlbəttə, biz də şəhidlər veririk. Çünki torpaq uğrunda ölən varsa VƏTƏNDİR. Amma bir gözümüz şəhidlərimizə ağlasa da, bir gözümüz qələbə sevinci ilə güləcək. Çünki bu işğal təkcə torpaqların işğalı deyil, mənəviyyatın, mədəniyyətin, adət-ənənənin işğalıdır. Azərbaycan xalqının isə artıq dəfələrlə dolub-boşalan səbr kasası son dəfə dolmuşdur. Biz xalq olaraq, illərin savaş yorğunları olaraq dərk edirik ki, mövzu vətən uğrunda mübarizə deyilsə, savaş cinayətdir. O zaman cinayətkarlara dərs verməyin vaxtıdır. Bizə öncə Allah, sonra haqq savaşımızda bizimlə olanlar yetər...

Artıq mənfur düşmən də anlamalıdır ki, vətəndə vətənsiz yaşamaq olmaz. Faşist işğalında yolun sonuna gəldik. Növbəti stansiya Qarabağ ümidi ilə qəzan mübarək olsun, Azərbaycan!

**ƏFSANƏ,**
**"Qəbələ"**